

Həmayil Əhmədqızı

# Bayatılar

Gözəldi, ey, gözəldi,
Dağı, düzü gözəldi.
Vətənim başdan-başa
Gözəllikdi, gözəldi.

Əzizinəm, vətəndi,
Azərbaycan vətəndi.
Hər kəsə eli, yurdu
O, ruhuna vətəndi.

Əzizinəm, gedir hey,
Heç yorulmur, gedir hey.
Ruhum vətənin istər,
Uçub gedir, gedir hey.

Əzizim, güllü dağlar,
Çiçəkli, güllü dağlar.
Düşmən gülün dərəndə
Əli qurusun, dağlar.

A dağlar, daşlı dağlar,
Daşı xınalı dağlar,
Xınan daşda qalıbdı,
Yaxanın yoxmu dağlar?

Dağlar, dağlar, a dağlar
Dərd ortağım, a dağlar
Dərdim yaman ağırdı,
Bir az götürsən dağlar.

A dağlar, bizim dağlar
Başı dumanlı dağlar.
Sinəsi çən örtülü,
Yorğanı qardan dağlar.

Dağlarda gəzərdim mən,
Gül-çiçək dərərdim mən.
Lilpardan dolça tutub,
Bulaqdan içərdim mən.

Əzizinəm, görəydim,
Uçub gedib görəydim.
Yetim qalan dağları
Nə haldadı, görəydim.

Əzizinəm, gedəydim,
Cəlaloğluna gedəydim,
Suqarışandan dağlara
Doyunca bir baxaydım.

Arazım, incimisən,
Eşitdim, incimisən.
Vətənimi böldün sən,
Dedim mən, incidin sən.

Arazım, incimə sən,
Gəl məndən incimə sən,
Demişəm, deməz olum,
Barışaq, incimə sən.

Arazım, qoynundadı,
Vətənim qoynundadı.
Laylanı astadan çal,
Eşidən qoynundadı.

Arazım, belə qalmaz,
Bölüblər, belə qalmaz.
Bölən qoy sevinməsin,
Vətənim yada qalmaz.

Əzizinəm, baxarlar,
Pəncərədən baxarlar,
Dünya pəncərə deyil,
Boş-boşuna baxalar.

Əzizim, çalxalanır,
Dünyamız çalxalanır.
Az aza qane olmur,
Çox niyə çalxalanır?

Əzizinəm, dünyadı,
Bax bu belə dünyadı.
Kiminə sığal çəkən,
Kimi əzən dünyadı.

Hey, dolurdu, dolurdu,
Boşalanlar dolurdu
Dünya burdan boşalır,
O bir yandan dolurdu.

Əzizinəm, qəribik,
Yurdu viran qəribik.
Dərd üstə dərd yüklənən,
Ağır yüklü qəribik.

Əzizinəm, qaldı, hey,
Yarı canım qaldı, hey.
Çubuqlu yaylağımda
Yurd yerləri qaldı, hey.

Əzizinəm, tökəydin,
Ağlayaydın, tökəydin.
Bulud, göz yaşlarını
Alovlara tökəydin.

Əzizinəm, yanırdı,
Cayır-cayır yanırdı.
Yanan tək meşə deyil,
Bilsəz, nələr yanırdı.

Əzizim, nələr olur,
Bilmirəm, nələr olur,
Meşələr qara geyir,
Dünyada nələr olur?

Əzizim, düzlərə bax,
Gəl gedək, düzlərə bax.
Laləsi yoxa çıxan,
Ağlayan düzlərə bax.

Əzizinəm, Güldəstə
Gülləri dəstə-dəstə.
Çələng hörür özünə,
Mənim yarım Güldəstə.

Əzizinəm, Heyrana
Heyran oldum, Heyrana.
Mən gördüm, aşiq oldum,
Ceyrana yox, Heyrana.

Əzizinəm, İncidi.
Mənim yarım İncidi.
Mən nə dedim, bilmirəm,
Yarım küsüb incidi.

Əzizinəm, bax mənə,
Yerə baxma, bax mənə
Baxışın qoy yandırsın,
Alovlanım, bax mənə.

Əzizinəm, nardı o,
Alma deyil, nardı o.
Dəstə qızlar içində
Yaşıl donlu yardı o.

Əzizinəm, nə oldun?
Məlhəmim, dərdim oldun.
Məlhəmin tez qurtardı,
Təkcə mənə dərd oldu.

Dağlardan qar istərəm,
Bağlardan bar istərəm.
Yara vəfadar olan,
Vəfalı yar istərəm.

Əzizim, üzüm qaldı,
Dərmədim, üzüm qaldı.
Sən elə baxdın mənə,
Gözündə gözüm qaldı.

Əzizinəm, yarımdı,
Dolu deyil, yarımdı.
Gülüşündən tanıdım,
Bildim, gələn yarımdı.

Gözəl, gözəl, ay gözəl,
Nazlı, qəmzəli gözəl
Nazın məni öldürür,
Nədir qəsdin, ay gözəl.

Əzizinəm, ayımsan,
Ulduzumsan, ayımsan.
İllərdi gözlədiyim,
Tanrıdan sən payımsan.

Əzizinəm, baxarlar,
Gözəllərə baxarlar.
Mənim yarım gözəldi,
İstəmirəm baxalar.

Hey qarşıma, qarşıma,
Çıxır mənim qarşıma.
Mərdlər yoxamı çıxdı?
Namərd çıxır qarşıma.

Əzizinəm, su oldu,
Qar əridi, su oldu.
Başına yağan qarlar
Niyə donub buz oldu?

Əzizinəm, neylərsən,
De bir görüm, neylərsən?
Baş götürüb dünyadan
Köçüb getsəm, neylərsən?

Əzizim, nələr qaldı?
Sinəmdə nələr qaldı?
Vaxta etibarım yox,
Biləsiz, nələr qaldı.

Yandırır, ey yandırır,
Günəş yeri yandırır.
Dərd hamının dərdidi,
Niyə məni yandırır?

Dolubdu, hey, dolubdu,
Göylər yaman dolubdu.
Yerdəki olanlara
Ağlayacaq, dolubdu.

Əzizim, dözərəm mən,
Hər dərdə dözərəm mən.
Sən məndən üz çevirsən,
Bax ona dözmərəm mən.

Əzizinəm, selə bax,
Yağış yağıb, selə bax.
Deyir ağlamamışam,
Üzündəki selə bax.

Əzizinəm, dağı sən,
Aranı mən, dağı sən.
Yaram sağalmayıbdı,
Yenə çəkdin dağı sən.

Əzizim, harda qaldı?
Gəlmədi, harda qaldı?
Sözündə yalan olmaz,
Söz verdi, harda qaldı?

Əzizinəm, gül açdı,
Bahar gəldi, gül açdı.
Gizli saxladığım eşq
Necə oldu dil açdı?

Bənövşəm, ay bənövşəm,
Boynu bükük bənövşəm,
Niyə qara tikanın
Qoynundasan, bənövşəm?

Əzizinəm, mənim sən
Bənövşəm, nərgizimsən.
Bütün aləm bilir ki,
Sən mənimsən, mənimsən.

Bağçalardakı güllər,
Qönçələnibdi güllər.
Bir-birindən ayırmam,
Küsüb inciyər güllər.

Əzizinəm, gəlmişəm,
Sən çağırdın, gəlmişəm.
Ürəyim küsüb səndən,
Mən ürəksiz gəlmişəm.

Əzizinəm, safıq biz,
Biz safıq biz,safıq biz
Başımıza gələnlər
Dəyişmədi, safıq biz.

Üzümə bax, üzümə,
Sığal verdim özümə.
Yarım məndən inciyib,
Baxmayır heç üzümə.

Əzizinəm, sınıbdı,
Şüşə deyil, sınıbdı.
Heç kəs sındırammadı,
Bir kəlmənlə sınıbdı.

Əzizim, altmışdı,
Əlli yox, altmışdı.
Əlli səni silkələr,
Oyadan altmışdı.

Oxuyub başa çıxdım,
Dağın qaşına çıxdım.
Heç bilmirəm haradan
Qismət qarşıma çıxdı.

Əzizim, gözlərinə,
Qurbanam gözlərinə.
Bilirəm, incimisən,
Baxmırsan gözlərimə.

Əzizim, kimə qalar?
Bilmirəm, kimə qalar?
Gələnlər bir-bir gedir,
Bəs dünya kimə qalar?

Dağlarda duman olar,
Halım pərişan olar.
Bir dəfə üzün gülsə,
Dünyalar mənim olar.

Əzizim, gələcəksən?
Deyirsən, gələcəksən.
Dünyamı yıxıb getdin,
Haraya gələcəksən?

Əzizinəm, axtarır,
Tapammır, hey axtarır.
Haqsız haqqı itirdi,
Haqlı haqqı axtarır.

Əzizinəm, mən gəldim,
Bax mən gəldim, mən gəldim.
Günahım olmasa da,
Barışmağa mən gəldim.

Üzümə bax, üzümə,
Salxım-salxım üzümə.
Yaş etdiyin eyləyib,
Baxammıram üzümə.

Əzizinəm, dönərmi?
Sən de, geri dönərmi?
Günahımı anladım,
Peşmanam, dönərmi?

Əzizinəm, günə bax,
Od püskürən günə bax.
Öz-özümə etdiyim
Günümə bax, günə bax.

Əzizinəm, baxım mən,
Bu dünyaya baxım mən.
Bu gün varam, sabah yox,
Qoy doyunca baxım mən.

Mübarəkdi, mübarək,
Ər igidlər, mübarək!
Bizə yaşatdığınız
Zəfər günü mübarək!

Əzizim, gəzəm dağlar,
Nə ola, gəzəm dağlar.
Ölmədən son bir dəfə,
Sinəndə gəzəm dağlar.

Dağlarda gəzəmmədim,
Getdim mən, gəzəmmədim.
İzimiz qoşa qalıb,
Mən sənsiz gəzəmmədim.

Əzizim, qar əridi,
Yaz gəldi, qar əridi.
Ürəyimə yağan qar
Sən gələndə əridi.

Əzizinəm, düzdəsən,
Yoxuşda mən, düzdə sən.
Heç bilmirəm, nədəndi
Həmişə sən düzdəsən.